1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin "İstedadlı şagirdlər üçün xüsusi lisey siniflərinin təşkili barədə" 22 iyun 2010-cu il tarixli, 835 nömrəli əmri ilə müəyyən edilmiş şəhər və rayonların müvafiq ümumi təhsil müəssisələrindəki xüsusi lisey siniflərinin 2011-2012-ci dərs ili üçün tədris planı (əlavə 1) vətədris planına dair qeydlər (əlavə 2) təsdiq olunsun.

2. Aparatın rəhbəri İ.Pirməmmədov, Kənd rayonları üzrə ümumi təhsil şöbəsi (A.Əhmədov) tədris planının vaxtında yerlərə çatdırılmasını təmin etsinlər.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) bu əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini İ.İsgəndərova həvalə olunsun.

Misir MƏRDANOV,

Azərbaycan Respublikasının təhsil naziri

4 iyul 2011-ci il

Əlavə:

1. İstedadlı şagirdlər üçün xüsusi lisey siniflərinin 2011-2012-ci dərs ilinə aid tədris planı (təlim Azərbaycan dilində)

2. Tədris planına dair qeydlər